*İctimai və humanitar elmlər 11, №1, 2025, səh. 26-33*

https://doi.org/10.59849/3006-1342.2025.1.26
UOT 94 (479. 24)

*Cəmil Şamil oğlu Quliyev*
*tarix üzrə fəlsəfə doktoru*
*AMEA Lənkəran Regional Elmi Mərkəzi,*
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*Lənkəran ş. Ş.Axundov küçəsi, 18*
*E-mail: qcamil@mail.ru*
*https://orcid.org/0009-0006-8736-0667*

# MÜSTƏQİL AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ

*Heydər Əliyev böyük tarixi şəxsiyyətdir. Bu böyük insanın həyatı, fəaliyyəti, şəxsiyyətin görünən və görünməyən dərinlikləri detallarınacən öyrənilməlidir. İndi şərəfli tariximizə çevrilən 90-cı illəri xatırlayanda xalqımız həqiqətən çox çətin və ağır bir dövr yaşayıb. Milli iftixarımız Heydər Əliyevin Vətənə dönməsi, xalqımızı böyük fəlakətdən xilas etdi. Vəziyyətin təhlükəli həddə çatdığı 1993-cü ildə azərbaycanlıların yeganə ümid yeri Heydər Əliyev idi. Bizim dövlətçilik tariximiz, ənənələrimiz çox qədim və zəngindir. Milli dövlətçiliyimizin inkişafı və möhkəmlənməsində Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Vətəndaşların milli ideologiya ətrafında birləşməsində rol oynayan sima idi. O, hər bir azərbaycanlını da bu zirvədə, dünyanın hansı güşəsində yaşamasından asılı olmayaraq, özü kimi vətənpərvər görmək istəyirdi. Milli birliyimizi qorumaqla, azərbaycançılıq məfkurəsi altında Ümummilli Heydər Əliyevin əmanəti olan demokratik, suveren Azərbaycan dövlətini Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək yaşadacağımıza, onu özümüzdən sonra gələcək nəsillərə qüdrətli bir dövlət kimi ötürə biləcəyimizə əminəm.*

*Açar sözlər:* Heydər Əliyev, tarix, dövlət, milli, Azərbaycan, şəxsiyyət

## *Giriş*

Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması, qorunub saxlanılması və milli dövlət quruculuğu proseslərində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Görkəmli siyasətçi, ictimai-siyasi xadim və unikal şəxsiyyət kimi onun istər sovet, istərsə də müstəqillik dövründəki xidmətləri, Azərbaycana rəhbərliyi illərində respublikanın tərəqqisi istiqamətində atdığı addımlar, xalqımızın mənəvi dəyərlərinin qorunması və inkişafı sahəsində gördüyü işlər haqqında indiyə qədər çox saylı elmi-siyasi araşdırmalar aparılmış və kitablar yazılmışdır. Heydər Əliyevin müstəqil və demokratik Azərbaycan uğrunda apardığı mübarizə, respublikanın ağır faciələrdən, siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan qurtuluşu naminə öz üzərinə götürdüyü missiya müxtəlif mərhələlərdən keçmişdir.

## *Əsas hissə*

Cənab Prezidentimiz İlham Əliyev 29 sentyabr 2022-ci ildə 2023-cü ilin “Heydər Əliyev ili” elan edilməsi haqqında Sərəncam imzalamaqla Böyük Öndərin, qüdrətli dövlət xadiminin Azərbaycan xalqı qarşısında tarixi xidmətlərinin və siyasi irsinin daha dərindən araşdırılması və təbliği istiqamətində yeni imkanlar açdı. Azərbaycan qədim tarixi və dərin dövlətçilik ənənələrinə malik olan ölkədir. Heydər Əliyev son bir neçə əsrdə xalqımızın yetirdiyi ən nadir şəxsiyyət və qüdrətli xadimidir. Ümummilli Lider Heydər Əliyev birinci dəfə hakimiyyətdə olduğu dövrdə Azərbaycanın gələcək müstəqillik günlərini görür və dirçəlişin təməlini qoyurdu. Həmin dövrlərdə yaradılan iqtisadi potensial çox sonralar özünün

dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın inkişafı üçün yaxşı təməl oldu. Azərbaycanın qara günləri, çətin anları Heydər Əliyev siyasi hakimiyyətdən getdikdən sonra başladı. Azərbaycan müstəqillik qazandıqdan sonra Heydər Əliyevin hakimiyyəti illərində qısa zaman kəsiyində ölkədə ictimai-siyasi sabitliyin bərpa edilməsi, ardıcıl milli dövlət quruculuğu və sosial-iqtisadi siyasətin həyata keçirilməsi istiqamətində çox ciddi işlər görüldü və tədbirlər həyata keçirildi. Dövlət xadimi Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri və rolu vardır. Sərəncamda qeyd edildiyi kimi, Heydər Əliyev öz xalqını mürəkkəb tarixi-siyasi sınaqlardan uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Belə böyük tarixi simanın öyrənilməsinə müxtəlif cür – onun şəxsiyyət kimi və dövlət xadimi kimi öyrənilməsi baxımından, yaxud da siyasi lider kimi formalaşdığı və təşəkkül tapdığı mühitin son dərəcə dəqiq və hərtərəfli təhlili baxımından yanaşmaq olar. Onun dövlətçilik fəaliyyətinin müxtəlif mərhələlərinin təsviri kimi çox geniş yayılmış yanaşma da haqlı ola bilər. Bütün bu yazılarda onun gördüyü işlərin çox böyük əhəmiyyətini hiss edirik. Bir çox müəlliflər qeyd edirlər ki, onun gördüyü bütün işlər və söylədiyi sözlər heyrət doğurur, eləcə də bu şəxsiyyəti başa düşməyə çalışan hər bir kəs onun yaratdıqlarına ürəkdən valeh olmaq üçün səbəb axtarıb tapır. Deyirlər ki, ölkələr də insanlar kimidir. Tale bəzən onları sevinc və səadətdən məhrum edir, sərt sınaqlara çəkir. 1993-cü ilin iyununda Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibat etdikdə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Azərbaycan vətəndaşları bu taleyüklü dövrdə də Heydər Əliyevin sadiq müttəfiqi oldular, ilk növbədə, özlərinə hörməti bərpa etmək üçün bütün iradəsini və həyat enerjisini səfərbər edə bildilər. Heydər Əliyevin qayıdışı sayəsində Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, xalq sanki ümidsiz olan bir vəziyyətdə perspektivləri gördü, onda öz gələcəyinə inam oyandı. Şübhəsiz ki, Heydər Əliyev öz xalqının psixologiyasının xüsusiyyətlərini, mentalitetini çox gözəl bilən xarizmatik liderdir. Onun həyatında hadisələrin sanki öncədən müəyyənləşdirilmiş gedişini təkcə sözün gücü ilə dəyişdirə bildiyi hallar çox olmuşdur. Heydər Əliyevin şəxsi nümunəsi bizim hamımızı, onun həmvətənlərini ruhlandırır və qurub-yaratmağa həvəsləndirir. Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Müəlliflər onun ölkəmizin tarixində bütöv bir dövrü təcəssüm etdirən əsl Vətəndaşın, böyük Şəxsiyyətin və qüdrətli Liderin, insanın müxtəlif cəhətlərini açıqlayırlar. Lakin onların hamısının yekdil rəyi belədir ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır. Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial həyatda tərəqqinin 30 ildən artıq dövrünü əhatə edən bütöv bir epoxa Heydər Əliyevin adı ilə bağlıdır. Bütün bunlar onun həm əməli fəaliyyətində, həm də inkişafımızın paradiqmasında fəlsəfi anlamında öz əksini tapmışdır. Onun yaratdığı fəlsəfi konsepsiya Azərbaycanın müasir dünyada özünəməxsus yerini müəyyənləşdirmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil etmiş və dünya azərbaycanlılarının həmrəyliyi prosesinin ideya əsasını yaratmışdır. Ulu Öndər Heydər Əliyev son bir neçə əsrdə xalqımızın yetirdiyi ən nadir şəxsiyyət və qüdrətli dövlət xadimi kimi Azərbaycanın tarixində çox dərin izlər qoymuş və bu xalqın yaddaşına Ümummilli Lider kimi daxil olmuşdur. Ümummilli Lider hakimiyyətdə olduğu bütün zamanlarda var qüvvəsi ilə ölkəmizin gələcək inkişafı, firavanlığı və müstəqilliyi naminə yorulmadan çalışmışdır. Onun haqqında fikir söyləmək üçün bunun məsuliyyətini dərk etmək lazımdır. Sovet dövründə millətin varlığını təsbit etməsi, onu keçmişinə, milli irsinə, dilinə və dininə qaytarması, müstəqillik illərində isə xalqını gələcəyə, daha müasir və sivil cəmiyyət quruculuğuna, demokratik nailiyyətlərə aparması, yeni dünya düzənində dövlətini söz və mövqe sahibinə çevirməyə nail olması konkret faktların dili ilə cild-cild kitablarda, bitməyən xatirələrdə əks olunur. Heydər Əliyevin Azərbaycana bəxş

etdiyi intibahdan, xalqına ithaf etdiyi ömründən bu ölkənin hər bir vətəndaşı qürurla və iftixarla danışa bilər [2, s. 4].

**1. Milli ideologiyanın formalaşması.**

Milli ideologiyamız azərbaycanlıların milli idealı olan azadlıq və müstəqilliyinin, respublikamızın ərazi bütövlüyünün qorunub saxlanılmasına, milli inkişafın təmin olunmasına, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin inkişaf etdirilməsinə xidmət etməlidir. Uzun tarixi inkişaf yolu keçən xalqımız müstəqilliyi uğrunda zaman-zaman mübarizə aparmış, böyük sınaqlardan uğuurla çıxaraq istiqlaliyyət qazanmışdır. Azərbaycan xalqının tarixi azadlıq uğrunda mübarizə tarixidir. İlk qədim dövlətlərin yarandığı vaxtdan müasir dövrədək xalqımız həmişə azadlıq və müstəqilliyi uğrunda mübarizə aparmış, çətinliklə də olsa, məqsədinə nail ola bilmişdir. Buna görə də Azərbaycan milli ideologiyasının əsası azadlıq ideyası olmuşdur. Bu idelogiya xalqımızın ilk yazılı abidəsi olan "Avesta"da, rəvayət və əfsanələrdə, mifologiyasında da öz ifadəsini tapmışdır. Astiaq əfsanəsində vətənpərvərlik, cəsarət və igidlik, "Tomris əfsanəsi"ndə Tomris qeyrəti, qorxmazlığı və düşmənə nifrəti milli idelogiyamızın parlaq nümunəsidir. İlk yazılı abidəmiz olan "Avesta"da Zərdüştliyin idealı olan üç prinsipi – "xeyir fikir, xeyir söz, xeyir əməl" ifadə edilmiş və bununla da, Zərdüştilik bəşəriyyətə ədalətin ilk simvolu daxil olmuşdur. Tomrisin ruhunun işığından nurlanan Sara Xatun diplomatiyası, Tuti Bikə sədaqəti, Həcər igidliyi, Salatın qorxmazlığı milli ideologiyamızın formalaşmasında əvəzsiz rol oynayır. Bəhmənyar fəlsəfəsi, Nizami Gəncəvinin dahiliyi, Dədə Qorqud müdrikliyi, Nəsimi dönməzliyi, Şah İsmayıl Xətainin sərkərdəlik məharəti, Füzulinin söz sənəti, Vaqif hazır-cavablığı, Cavad xan qeyrəti, Nəriman Nərimanovun insaniyyəti, Hacı Zeynalabidin Tağıyevin xeyirxahlığı, Məmməd Əmin Rəsulzadənin təəssübkeşliyi, Heydər Əliyevin liderlik məharəti və müdrik siyasəti yenilməz qüdrətimiz, milli iftixarımızdır.

Azərbaycan milli ideologiyasının digər xüsusiyyəti onun varislik əsasında özünəməxsusluq ənənəsini davam etdirməsidir. 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Cumhuriyyətinin elan etdiyi bəyannamədə deyilir ki, bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdir. Milliyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar verir, onların azad inkişafı üçün geniş imkanlar təmin edir [4, s. 8].

Azərbaycan Demokratik Cumhuriyyətinin dövlətçilik prinsipləri əsasında Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk milli Konstitusiyasında milli ideologiyamız qanunla təsbit olunmuşdur. Konstitusiyada qeyd edilir ki, heç bir sivil ölkədə iqtisadi məsələdə milli azlıqlara xüsusi fikir verilmədiyi halda, Azərbaycan Respublikasında bu dövlət səviyyəsində öz əksini tapmışdır.

Uzun müddət Rusiyanın, son 70 ildə isə SSRİ-nin tərkibində olarkən Azərbaycan milli ideologiyasında ruslaşdırma siyasəti gedirdi. Xüsusən totalitar inzibati-amirlik dövründə Azərbaycan ideolgiyası dar çərçivədə "kommunist" idelogiyasına tabe edilmişdi. Bu ideologiyadan kənara çıxan Azərbaycan xalqının görkəmli şəxsiyyətlərini Sibir sürgünləri və ya ölüm gözləyirdi. Buna baxmayaraq, xalqımızın sədaqətli oğulları belə şəraitdə azərbaycançılıq ideologiyasını, milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək üçün həyatlarını təhlükə qarşısında qoyub və ya bu yolda qurban gedirdilər. Xalqımızın tarixində özünəməxsus yer tutan xalq qəhrəmanı Babəkin igidliyi, yadellilərə qarşı mübarizə əzmi milli ideologiyamızın formalaşmasında əvəzedilməz əhəmiyyətə malikdir. Ziya Bünyadovun yazdığı kimi, işgəncənin dəhşətinə baxmayaraq, Babək və qardaşı ölümə əzmlə sinə gərdilər, mərdliklə əbədiyyətə qovuşdular. Bu ölməzlik əsrlər boyu qəhrəmanlıq məktəbi oldu. Babəkin adı Azərbaycan xalqının istiqlaliyyəti uğrunda mübarizə rəmzinə çevrildi.

XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımı zamanı, ən çətin məqamda, ölüm ayağında belə yüksək insani keyfiyyətləri ilə seçilən Əlif Hacıyev, Allahverdi Bağırov, Ələsgər Novruzov, Füzuli Rüstəmov, Şöhrət Həsənov kimi mərd, qorxmaz vətənpərvərlərin qəhrəmanlığı ilə fəxr edirik. Xocalı faciəsini Azərbaycan xalqının haqq səsini dünyaya çatdırmaq üçün unudulmaz televiziya jurnalisti Çingiz Mustafayevin erməni qəsbkarları ilə döyüşlərdə qəhrəmancasına həlak olması gənclərimizin yaddaşına əbədi yazılmışdır. Bütün bunlara baxmayaraq, əsrlərlə yadellilərin əsarətində qalan xüsusən Sovet imperiyası dövründə xalqımızın soykökündən ayrılması, milli adət-ənənələrin, dini etiqadların yasaq edilməsi onun milli ideologiyasında bir sıra mənfi xüsusiyyətlərin yaranmasına səbəb olmuşdur. Bu gün müstəqillik qazandığımız bir dövrdə həmin xüsusiyyətləri aradan qaldırmaq hamımızın borcudur. Əvvələn, çarizmin şovinist-dini siyasətinin nəticəsində gənclərimiz hərbi xidmətə cəlb olunmadığından indi də az da olsa bəzi gənclərimizdə ordudan yayınmaq psixologiyası mövcuddur. İkincisi, totalitarizm, repressiya və KQB qorxusu nəticəsində bir-birinə şübhə ilə yanaşmaq hallarının mövcudluğu insanların inamına mənfi təsir göstərir. Hər hansı bir ölkədə baş verən sosial-siyasi, iqtisadi və s. dəyişikliklərə bəzən düzgün qiymət verilməməsi, milli-mənəvi dəyərlərə, milli ideologiyaya ikili münasibət bəsləməsinə gətirib çıxarır və ölkənin beynəlxalq nüfuzuna mənfi təsir göstərir [6, s. 22].

Müasir təzadlı və narahat dünyamız böhranlar keçirir. Bütün bəşəriyyəti narahat edən qlobal problemlər mövcuddur. Bir tərəfdən müstəqil suveren dövlətlər yaranır və inkişaf edir. Digər tərəfdən millətlərarası münasibətlərin gərginləşməsi və toqquşması milli münasibətlərin pozulmasına gətirib çıxarır. Eyni zamanda, terrorizm, narkomaniya kimi zidd proseslər qloballaşır, bütün ölkələrin ona qarşı mübarizə aparması tələb olunur. Cəmiyyətdə baş verən sosial-siyasi, iqtisadi, elmi və s. dəyişikliklər milli ideologiyaya təsir göstərir. Məlum olduğu kimi, ictimai həyatda tarix boyu siniflər, sosial və etnik qruplar, habelə dövlətlər arasında baş verən proseslər xalqın ideologiyasına təsir göstərir. İdeologiya mövcud iqtisadi münasibətləri, müəyyən sinfin, etnik və sosial vəziyyətini, mənafeyini bilavastiə müstəqil və daha dərin şəkildə əks etdirir. Ermənistanın Azərbaycana qarşı apardığı qəsbkarlıq mübarizəsində, II Qarabağ müharibəsində respublikamızın bütün xalqları və etnik qrupları qəhrəmanlıqla döyüşərək xalqımızın birliyini sübut etdilər. Bu gün bizim müstəqil, suveren, hüquqi və dünyəvi dövlətimiz – Azərbaycan Respublikası vardır. Belə bir dövlətdə milli ideologiyamız azərbaycançılıq ideologiyasıdır. 44 günlük Vətən müharibəsində xalqımızın öz prezidentinin ətrafında sıx birləşərək dövlət müstəqilliyini qoruması, milli-siyasi şüurun yüksək səviyyəsi olan milli ideologiyanın qələbəsi idi. Azərbaycançılıq milli ideologiyasının formalaşmasını bilavasitə, Heydər Əliyevin son dövrdə həyata keçirtdiyi islahatlar və fərmanların nəticəsi kimi qiymətləndirmək olar [5, s. 188].

**2. Milli dövlətçilik.**

Heydər Əliyevin Azərbaycan tarixinə təsiri çox böyükdür. O, müstəqil Azərbaycan dövlətinin arxitekturasını yaratmış, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur. “1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası” haqqında Ulu Öndər Heydər Əliyevin 1997-ci il fərmanı, “İnsan vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında”, “1918-ci il martın 31-də azərbaycanlıların soyqırımı gününün qeyd edilməsi haqqında“ Azərbaycan Respublikası Prezidentinin 1998-ci il fərmanlarının xüsusi əhəmiyyəti vardır. Adət-ənənələrimiz, milli dəyərlərin qorunub saxlanması, “Azərbaycan dilinin saflığının qorunması və onun zənginləşdirilməsi haqqında” qərarlar da milli ideologiyamızın inkişafına xidmət edir.

Bütün bunlarla bərabər, ilk hakimiyyəti dövründə bazasını yaratdığı Azərbaycan hərbi qüvvələrinin yüksək səviyyədə təkmilləşməsi Ulu Öndərin ikinci hakimiyyət dövründə də nəzarət altında idi. Əgər xatırlasaq, bu dövrdə də dahi şəxsiyyət öncə cəmiyyətin ictimai-

siyasi sabitliyinin və yekdilliyinin təmin olunmasına xüsusi diqqət yetirməklə, xalqın siyasi baxımdan ayrı-ayrı hissələrə parçalanmasını, dövlətin vətəndaşlarının bir-birinə qarşı əks cəbhələrdə dayanmasını erməni təcavüzünə qarşı mübarizədə ciddi maneə kimi qəbul etdi. Bu parçalanmada müxalifətçilik amili dayandırılmaqla, ölkənin etibarlı müdafiəsi təmin olundu. 1993-cü ilin yayında Gəncə və Lənkəranda baş vermiş hadisələrin, 1994 və 1995-ci illərdə dövlət çevrilişinə göstərilən cəhdlərin qarşısını alan Heydər Əliyev, cəmiyyətin vahid məqsəd ətrafında sıx birləşməsinə nail oldu. O, hərbi quruculuq kimi ümumxalq əhəmiyyətli bu məsələni yekdilliklə həyata keçirdi. Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də Ulu Öndər orduda yer almayan dövlət rəhbərliyi məsələsini, dövlətin quruculuq proqramını, orduya qanunsuz çağırışlar və bir-birinə zidd ordu müxtəlifliyi, döyüş qabiliyyətinin zəruri tələblərə cavab verməyən amillərini də ortadan qaldırdı. Orduda vahid komandanlıq yaranmaqla onun hərb üçün gərəkli bütün təchizatı həyata keçirilməklə, xüsusi qanunlar tətbiq edildi ki, bu artıq ordu bütövlüyü və idarəçiliyinin sabit quruluşu idi.

**3. Xalq sevgisi.**

Bütün bura qədər olan milliyətçiliyimizə, dövlətçiliyimizə dair problemləri ortadan qaldıran Ulu Öndərin keçdiyi tarixi yolda "Xalq-Heydər, Heydər-Xalq" ifadəsi ayaq açdı ki, bu ifadə Prezident və Xalq birliyinin simvolik rəmzi kimi tarixə düşdü. İstər iqtisadiyyatımız, sosial şəraitimizin inkişafı, milli mədəniyyətimizin, tarixi keçmişimizin qayıdışı, dükan-bazarlarda belə rus dilində danışıqların özümüzə, öz dilimizə qayıdışı bu tarixi şəxsiyyətin bacarığı sayəsində sabitləşdi. Müxtəlif istiqamətlərdən yeni ziyalı, hərbçilər, rəhbər vəzifələrə layiq gənclərin yetişdirilməsi siyasi gedişləri Ulu Öndərin bir milliyətçi tarixi şəxsiyyət olduğunu tam ortaya qoymuş oldu. Bütün bunlar bir daha təsdiq edir ki, "Nə qədərki Azərbaycan yaşayır, Heydər Əliyev də yaşayacaqdır"! Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın azad və müstəqilliyinə səbəb olacaq işlərin siyasi və ictimai üsullarla icrasına həsr edib. Xalqına və dövlətinə bütün varlığı ilə bağlı olan bu dahi şəxsiyyətin yalnız bir müqəddəs ideyası olub: Müstəqil, Azad və Əbədi Azərbaycan! Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini incələdikcə insan, sözün əsl mənasında, heyran qalır. Bir insanın qəlbində bu qədərmi Vətən, Xalq, Dövlət sevgisi ola bilər?! Bir insan öz qədim-milli köklərinə bu qədərmi səmimiyyətlə bağlı olar?! Bir insan öz xalqının tarixinə və mədəni dəyərlərinə bu qədərmi sonsuz ehtiram göstərər?! Bəli, hələ saymaqla bitməyən ölçüyə-gəlməz dəyərlər və əməllər məhz bu dahi şəxsiyyətə - Heydər Əliyevə məxsusdur. Onun ruhu xalq idi, vətən idi. Bu düşüncələrini Ulu Öndər təkcə əməli fəaliyyətdə deyil, nitqləri, xalqla olan söhbətləri zamanında da aydınca ifadə edirdi. O, Azərbaycana – doğma Vətəninə, sözün əsl mənasında, vurğun idi. Və bunu elə səmimi ifadə edirdi ki, bu gün də Vətən, Xalq, Azərbaycanla bağlı olan Ulu Öndərin sonsuz səmimiyyətlə və sevgi ilə söylədiyi ifadələr xalq tərəfindən "hikmətli kəlam" statusu qazanmışdır. Heydər Əliyev azərbaycançılıq ideyalarının qorunması və yaşamasında milli dəyərlərin rolunu çox gözəl bilirdi. Odur ki, milli-mənəvi dəyərlərə məxsus nə var idisə, onların mühafizə olunmasını vacib missiya hesab edirdi. Bu nöqteyi-nəzərdən Ulu Öndər milli-mənəvi dəyərlərimizdən olan şifahi və yazılı ədəbiyyatımızın inkişafına xüsusi diqqət və qayğı göstərirdi. Akademik Muxtar İmanov Heydər Əliyevin bu yöndəki fəaliyyəti haqqında dəyərli fikirlər söyləyir: "Ulu Öndər milli ideologiyanın formalaşmasında mədəni irsin, xüsusən şifahi və yazılı ədəbiyyatın əhəmiyyətini həmişə önə çəkmişdir... Ulu Öndər milli-mənəvi dəyərlərin, xalqımızın sahib olduğu zəngin mədəni irsin gənclərə və ümumiyyətlə, gələcək nəsillərə itkisiz ötürülməsini dövlət müstəqilliyinin təminatı üçün zəruri amil saymışdır".

Ulu Öndər Heydər Əliyevin siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə qoyduğu izlər heç vaxt silinməyəcək. Bu gün də mövcud iqtidarın monolit birliyi nəticəsində Ümummilli Liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi

strateji xətlə inamla getməkdə, inkişafını davam etdirməkdədir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə Ulu Öndərin layiqli varisi, praqmatik dövlət xadimi, bütün dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezidentimiz İlham Əliyevdir. İlham Əliyevin qətiyyətli idarəçiliyi, xalqa və dövlətə bağlılığı, qazandığı böyük nüfuz və ehtiram onu deməyə əsas verir ki, Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan daha böyük uğurlara, zəfərlərə və geniş miqyaslı inkişafa doğru inamla gedir [3, s. 9].

2001-ci il noyabrın 9-10-da Bakı şəhərində çağrılan dünya azərbaycanlıların I qurultayı azərbaycançılıq ideyasının formalaşmasında yeni mərhələnin başlanğıcı olmuşdur. Qurultayın qətnaməsində göstərilir ki, Azərbaycan dilini, milli-əxlaqi dəyərləri, azərbaycanlıların bir xalq, millət kimi formalaşdığı tarixi Vətənin şərəfini qorumaq, harada yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan icmasının, hər bir azərbaycanlının müqəddəs vəzifəsidir. Heydər Əliyev qurultayda dolğun nitqini bitirərkən demişdir: "Qoy, çaylarımız qurumasın! Qoy, ağaclarımız kəsilməsin! Qoy, çırağımız sönməsin!". Heydər Əliyevin bu sözlərini mahiyyətcə canlı orqanizmi xatırladan, milli dövlətçiliyimizi formalaşdıran və inkişaf etdirən azərbaycançılıq ideologiyasına da şamil etmək olar. Qoy, bu azərbaycançılıq ideologiyasını daim qidalandıran tükənməz çaylar heç vaxt qurumasın! Qoy, bu azərbaycançılıq ideologiyasını göylərə qaldıran Azərbaycan incəsənətinin zirvələrini heç vaxt qara buludlar almasın! Qoy, Azərbaycanın bu həmişəyaşıl mənəvi sərvətlər ormanlığından bir ağac belə kəsilməsin! Qoy, Azərbaycanın və onun dövlətçiliyinin başı üzərində daim günəş nur saçsın! Azərbaycan xalqı yaşadıqca, Azərbaycan mədəniyyəti çiçəkləndikcə, azərbaycançılıq ideologiyası inkişaf etdikcə Azərbaycan milli dövlətçiliyi də əbədi var olacaqdır. İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan daha böyük uğurlara, zəfərlərə və geniş miqyaslı inkişafa doğru inamla gedir [1, s. 35].

## *Nəticə*

Məlum olduğu kimi Azərbaycan xalqının dahi lideri Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi tarixi epoxada cəmiyyət həyatının bütün sahələrini yeni inkişaf mərhələsinə qaldırmışdır. Azərbaycan Respublikasının beynəlxalq aləmdə artan nüfuzu, yürüdülən daxili və xarici siyasət, ölkədə aparılan demokratik islahatlar böyük tarixi şəxsiyyət Heydər Əliyevin adı ilə sıx bağlıdır. XX əsr dünya siyasət tarixinə adını əbədilik həkk etmiş, fenomen şəxsiyyət Heydər Əliyevin dövlət quruculuğu, siyasi, iqtisadi, elmi-mədəni sahələrdəki səmərəli və məhsuldar fəaliyyəti Vətən tarixçiləri üçün fundamental tədqiqat obyektidir. Artıq respublikamızda Heydər Əliyev siyasi məktəbi yaranmışdır və bu məktəbin nəinki siyasi elmlər sahəsində çalışan Azərbaycan alimləri, habelə digər ölkələrin tədqiqatçıları da bəhrələnirlər.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev: Biblioqrafiya. M.Vəliyeva, Y.Sadıqova, Bakı, 2023, 1000 səh.
2. Heydər Əliyev: həyatı vəsiyasi fəaliyyəti. İ.Hacıyev. Naxçıvan: Əcəmi, 2023, 176 səh.
3. Heydər Əliyev: tariximizdə və taleyimizdə. Ə.Quliyev, A.Quliyeva. Naxçıvan: Əcəmi, 2023, 271 səh.
4. Heydər Əliyev və İlham Əliyev: güclü dövlət, qələbənin fəlsəfəsi, böyük qayıdış. İ.Məmmədzadə, S.Həsənov. Bakı: Elm və Təhsil, 2023, 268 səh.
5. İnformasiya müharibəsində qələbə-Müzəffər Ali Baş Komandan İlham Əliyev. M.İsmayılov. Bakı-2021, 312 səh.
6. Milli ideologiya dövlətimizin əsasıdır. İ.Quliyev. Bakı: Hərbi, 2000, 80 səh.

УДК 94 (479. 24)

*Джамиль Шамиль Гулиев*
*Ленкоранский Региональный Научный Центр НАНА*
*Институт Истории и Этнологии НАНА им. А.А.Бакиханова*

ЛИЧНОСТЬ ГАЙДЕРА АЛИЕВА В ИСТОРИИ ГОСУДАРСТВЕННОСТИ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНА
*РЕЗЮМЕ*

*Ключевые слова:* Гейдар Алиев, история, государство, национальное, Азербайджан, личность

Гейдар Алиев – великая историческая личность. Жизнь, деятельность, видимые и невидимые глубины этого великого человека должны быть подробно изучены. Когда мы вспоминаем 90-е годы, ставшие теперь нашей славной историей, наш народ переживал очень трудный период. Возвращение Гейдара Алиева на родину спасло наш народ и нашу национальную гордость от великой катастрофы. В 1993 году, когда ситуация достигла опасного уровня, единственной надеждой азербайджанцев был Гейдар Алиев. История нашей государственности и традиции государственности очень древние и богатые. Гейдар Алиев оказал исключительные заслуги в развитии и укреплении нашей национальной государственности. Это был человек, сыгравший исключительную роль в укреплении нашего государства и объединении граждан вокруг идеологии национальной государственности. Он хотел видеть на этом саммите каждого азербайджанца, независимо от того, в каком уголке мира он живет, таким же патриотом, как он сам. Я уверен, что, защищая наше национальное единство и объединяясь вокруг идеологии азербайджанизма, мы сохраним демократическое, суверенное Азербайджанское государство, являющееся доверием Народного Гейдара Алиева, тесно сплоченное вокруг Победоносного Главнокомандующего господина Алиева. Президент Ильхам Алиев, и что мы сможем передать это будущим поколениям как мощное государство.

UDC 94 (479. 24)

*Jamil Shamil Guliyev*
*ANAS Lankaran Regional Scientific Center*
*Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS*

HEYDAR ALIYEV PERSONALITY IN THE HISTORY OF INDEPENDENT AZERBAIJAN STATEHOOD
*SUMMARY*

*Key words:* Heydar Aliyev, history, state, national, Azerbaijan, personality

Heydar Aliyev is a great historical figure. The life, activities, visible and invisible depths of this great person should be studied in detail. When we remember the 90s, which have now become our glorious history, our people experienced a very difficult period. Heydar Aliyev's return to the Motherland, our national pride, saved our people from a great disaster. In 1993, when the situation reached a dangerous level, the only hope of Azerbaijanis was Heydar Aliyev. Our statehood history and statehood traditions are very ancient and rich.

Heydar Aliyev had exceptional services in the development and strengthening of our national statehood. He was a person who played an exceptional role in the strengthening of our state and the unification of citizens around the ideology of nation-statehood. He wanted to see every Azerbaijani on this summit, regardless of which corner of the world he lives in, a patriot like himself. I am sure that by protecting our national unity and uniting around the ideology of Azerbaijanism, we will keep the democratic, sovereign state of Azerbaijan, which is the trust of National Leader Heydar Aliyev, closely united around the Victorious Commander-in-Chief, Mr. President Ilham Aliyev, and that we will be able to pass it on to future generations as a powerful state.

***Daxil oldu: 08.01.2025-ci il***